**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**ÜZEYİR HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**XƏLİLOVA SƏİDƏ HACIBABA QIZI**

# AZƏRBAYCAN MUSİQİ İFAÇILIĞI SƏNƏTİNİN İNKİŞAFINDA PİANOÇU ELMİRA ƏLİYEVANIN ROLU

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor **Gülnaz Abutalıb qızı Abdullazadə**

**Rəsmi opponentlər:** sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Gülzar Rafiq qızı Mahmudova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Sonaxanım Qulamrza qızı**

**Aparıcı təşkilat:** Gəncə Dövlət Universitetinin "Musiqi fənləri" kafedrası.

Müdafiə __07/05__2014-cü ildə saat __ Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ______________2014-cü ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru **H.V.MƏMMƏDOVA**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**: Musiqi ifaçılıq sənətinin əldə olunmuş nailiyyətlərinin öyrənilməsi onun sonrakı inkişafına təkan ola biləcək tarixi-nəzəri əsasın qoyulmasına gətirib çıxartmaqla yanaşı, ifaçılıq ustalığının və peşəkarlığın intensiv inkişafına kömək edəcək və bu öz-özlüyündə Azərbaycan musiqi-ifaçılıq sənətinin inkişafı deməkdir. Azərbaycan musiqi-ifaçılıq sənətinin yüksək nailiyyətlərinin öyrənilməsi musiqiçi-alim üçün aktualdır, problemin istər birbaşa və dolayı, istərsə də geniş və qısa öyrənilməsi tarixi əhəmiyyətinin itirilməməyinə və ənənələrin qorunmasına kömək edir. Azərbaycan musiqi-ifaçılıq sənətinin görkəmli nümayəndələrinin fəaliyyətinin araşdırılması zərurəti onunla bağlıdır ki, onun öyrənilməsi möhkəm elmi-metodik bünövrənin qoyulmasına zəmin yaradır. Müəyyən bir sahənin öyrənilməsi zamanı, alim müasir tədqiqatçı və bir-birini əvəz edən nəsillər sıralamasında vasitəçi kimi çıxış edir, başqa sözlə, bu təcrübə və toplanılmış müasir bilik ilə əlaqəni təmin edir.

Keçmişin parlaq nailiyyətləri, habelə görkəmli Azərbaycan musiqiçiləri, hansı ki, onların fəaliyyətləri milli musiqi ənənələrinin yaranmasına və çiçəklənməsinə, musiqi təhsili və təlimi sahəsində ilk peşəkar məktəblərin yaranmasına və Azərbaycan musiqi incəsənətinin dünyada tanınmasına səbəb olmuşdur. Onların musiqi incəsənəti sahəsindəki xidmətləri təkcə müasirlərinin yaddaşında deyil, eləcə də yeni nəsillərə onların mənəvi, əxlaqi və əqli potensialını nəsildən-nəslə keçirərək yaşadan şagirdlərinin hafizəsində dərin iz qoymuşdular. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələrinin yaradıcılıq yolunun öyrənilməsi gələcək nəsillər üçün, eləcə də dünya mədəniyyətinin tərəqqisi və inkişafı üçün tarixi, sosial və tərbiyələndirici əhəmiyyət daşıyır.

Ənənə və yeniliyin yaradıcı dialoqu, müəllif tərəfindən aparılan Azərbaycan musiqi-ifaçılıq sənətinin görkəmli nümayəndəsi, Azərbaycanın Əməkdar müəllimi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Elmira Əliyevanın yaradıcılıq yolunun tədqiqindəki problemlərin araşdırılmasında da özünün elmi potensial əhəmiyyətini saxlayır. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələrindən biri kimi, o özünün hərtərəfli musiqi yaradıcılığı fəaliyyəti ilə milli fortepiano məktəbinin aktiv inkişafına və çiçəklənməsinə gətirib çıxarır və onun tarixi inkişafı üçün mühüm töhfələr verir.

İstedadlı, məqsədyönlü və yaradıcı insan olaraq, o yüksək peşəkar pianoçu və pedaqoji hazırlıq keçmişdir və yüksək peşəkarlığı ilə fərqlənən pianoçular nəslinin yetişdirməsində fortepiano ifaçılığı sənətində birinci dərəcəli mütəxəssis olmuşdur. Onun birinci musiqi müəllimi M.P.Yablonko olmuşdur, Bül-Bül adına orta ixtisas musiqi məktəbində - L.N.Yeqorova, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında isə müəllimi professor - M.R.Brenner olmuşdur.

E.M.Əliyeva özü güclü bir şəxsiyyət olaraq, belə istedadlı musiqi müəllimlərinin təsiri altında yaradıcı şəxsiyyət kimi formalaşır. O, gözəl ifaçı olmaqla yanaşı, solist,

ansambl ifaçısı və həmçinin də yüksək ixtisaslı müəllimdir. Bilik yolunda böyük güc və enerji sərf edərək, Elmira xanım Əliyeva onu hazırlayan görkəmli musiqiçi-müəllimlərin ən gözəl keyfiyyətlərini özündə cəmləşdirmişdi.

O, təkcə tədris prosesi ilə kifayətlənməyərək, sistematik olaraq öz dövrünün musiqi və incəsənət korifeylərinin iştirakı ilə olan konsertlərdə, sərgilərdə, yığıncaqlarda müntəzəm olaraq iştirak etməklə yüksək mədəni səviyyəsini mükəmməlləşdirir.

Dissertasiya araşdırması Elmira xanım Əliyevanın yaradıcılıq yolunun hərtərəfli öyrənilməsinə, pedaqoji, ifaçılıq və elmi-yaradıcılıq məqsədlərinin yüksək səviyyədə, uğurla həyata keçirilməsində əsas və fərdi keyfiyyətlərinin üzə çıxarılmasına istiqamətləndirilmişdir.

E.M.Əliyevanın musiqi yaradıcılığının hərtərəfli fəaliyyəti haqqında olan çox sayda materialların öyrənilməsi onların dərin təhlilə, elmi yanaşmaya ehtiyacı olduğunu o səbəbdən mütləq edir ki, Azərbaycan musiqi ifaçılıq incəsənətində sosial və tarixi töhfəsinin əhəmiyyəti araşdırmaları zəruri edən başlıca cəhətlər sırasında durur.

E.M.Əliyevanın yaradıcılığı hər bir musiqiçi-pianoçu üçün əhəmiyyət kəsb edir, çünki onun yaradıcılığı keçmiş və bugünki Azərbaycan fortepiano məktəbinin uğurlarını özündə cəmləşdirir. Qeyd etmək lazımdır ki, E.M.Əliyevanın musiqi fəaliyyətinin əhəmiyyətini və bugünə kimi tam hərtərəfli araşdırılmaması tədqiqatı aktuallaşdırır.

**Tədqiqatın işlənmə dərəcəsi**: Musiqi incəsənətinin bütün sahələrində, o cümlədən folklor, bəstəkar yaradıcılığı, ifaçılıq, musiqişünaslıq və maarifləndirmə sahəsində milli ənənələrin dirçəlişi prosesi gedir. Məhz milli musiqi ənənələrinə davamlı olaraq qayıdış, bu ənənələrin mükəmməlləşdirilməsi və müasir dövrlə uyğunlaşdırılması musiqi mədəniyyətinin inkişafının göstəricisidir. Fortepiano-ifaçılığı sənətinin tarixi və nəzəriyyəsinin öyrənilməsi sahəsində böyük təcrübə toplanmışdır. Azərbaycan fortepiano məktəbinin yaradıcılarının M.R.Brennerin, G.G.Şaroyevin, K.K.Səfərəliyevanın, N.İ.Usubovanın, E.Nəzirova, R.İ.Atakişiyevin, S.A.Quliyevanın rolu və tarixi əhəmiyyəti haqqında ayrı-ayrı elmi təhqiqatlarda elmi və metodoloji fikirlər səslənir.[1] Onların tədris təcrübəsi təkcə fortepiano ifaçılığının tarixi, nəzəriyyəsi və təcrübəsinə deyil, musiqişünaslığa da əvəzsiz töhfələr vermişdir. Həmçinin onların parlaq ardıcıllarının tədris təcrübəsi də böyük əhəmiyyət kəsb edir: Z.A.Adıgözəlzadə, O.H.Abasquliyev, T.M.Seyidov, E.M.Səfərova, R.T.Quliyev, Ə.F.Vəkilova, Ə.M.Əliyeva, F.Ş.Bədəlbəyli, N.Q.Sultanov, V.T.Rəsulova, Y.M.Sabayev, S.A.Behbudova və bir çox başqaları.[2] Onların hamısının hərtərəfli musiqi yaradıcı fəaliyyəti dünya fortepiano incəsənətinin və pedaqogikasının ən yaxşı ənənələrinə əsaslanır. Onların fortepiano incəsənətinin tədrisinin müxtəlif aspektləri

---

[1] Видные деятели азербайджанской фортепианной школы./ Сост. Т.М.Сеидов, Баку: Ишыг, 1988.

[2] Актуальные проблемы фортепианного исполнительства и педагогики. Выпуск № 2 и Выпуск №2, Баку: Адыльоглу, 2006; 2008.

haqqında olan qiymətli metodik töhfələri müasir fortepiano ifaçılığının təcrübəsində və pedaqogikasında aydın əks olunmuşdur.

Yuxarıda adları çəkilən mədəniyyət xadimlərinin mədəni irsinin öyrənilməsi indiki tədqiqatın aparılmasında böyük rol oynamışdır. Elmi iş üçün Azərbaycan pianoçularının yeni nəslinin konsert-ifaçılığı fəaliyyəti böyük əhəmiyyət kəsb edir: M.Adıgözəlzadə, N.Əliyarova, Y.Axundova, S.Aşumova, Ü.Hacıbəyova, M.Hüseynov, M.Quliyev, R.Rzayeva, G.Anağıyeva və bir çox başqalarının ifaçılıq fəaliyyəti fortepiano ənənələrinin davamına şahidlik edir. Onların təcrübəsi və ustalığı aparılan araşdırmanın əhəmiyyətinin dərk olunmasına xidmət edir. Hal-hazırda pianizmin tarixi və nəzəriyyəsi, eləcə də fortepiano tədris metodikası sahəsində yeni elmi tədqiqatlar ifaçılıq sənətinin inkişafına öz töhfəsini vermişdir: T.M.Seyidovun[3], O.H.Abasquliyevin[4], Z.A.Adıgözəlzadənin[5], F.Xəlilovanın[6], L.H.Abasquliyevanın[7], L.E.Əliyevanın[8], L.S.Rzayevanın[9], A.A.Zamanovanın[10], S.R.Aşumovanın[11], A.H.Mailovanın[12], N.A.Quliyevanın[13], Q.N.Səfərovanın[14], X.N.Rzayevanın[15], K.Q.Hüseynovanın[16], F.S.Əliyevanın[17], H.Ə.Məhərrəmovanın,[18]

---

[3] Азербайджанская фортепианная культура XX века: педагогика, исполнительство и композиторское творчество. Баку:Азерб.гос.изд. 2006.

[4] Abasquliyev O.H. Kəngərlinskaya T.F. Fortepiano metodikasından mühazirə kursu. Bakı: «TS», 2001

[5] Адыгезалзаде З.А.Фортепианные миниатюры Ф.Амирова. Баку: Ишыг, 1979.

[6] Халилова Ф. Очерки истории азербайджанской фортепианной культуры. Автореф. Дисс… канд. искусствоведения. Баку: 1969.

[7] Абаскулиева Л.Г. Основные тенденции формирования и развития азербайджанской профессиональной фортепианной культуры. Автореф. дисс. … кандидата искусствоведения. Баку: 2005.

[8]Алиева Л.Э. Фортепианные циклы композиторов Азербайджана (вопросы эволюции жанра и стиля). Автореф. дисс. …. кандидата искусствоведения. Баку, 1973.

[9] Рзаева Л.С. Современная фортепианная музыка Азербайджана. Автореф. дисс. …. Кандидата искусствоведения. Ленинград, 1990.

[10] Заманова А.А. Фортепианное творчество Фикрета Амирова. Автореф. дисс. …. Кандидата искусствоведения. Ташкент, 1984.

[11] Ашумова С.Р. Фортепианный концерт в творчестве композиторов Азербайджана. (стилевые особенности и вопросы интерпретации). Автореф. дисс. …. кандидата искусствоведения. Москва,1991.

[12] Маилова А.Г. Становление и развитие музыкально-исполнительского творчества К.К.Сафаралиевой. Баку: Адыльоглы, 2003.

[13] Гулиева Н.А. Роль и функции фортепианного ансамбля в музыкально-эстетическом воспитании учащихся детских музыкальных школ. Автореф. дисс. …. кандидата педагогических наук. Баку, 2007.

[14] .Сафарова Г.Н «Формы и методы использования национальной музыки в начальном обучении детских музыкальных школ Азербайджана» . Баку, Автореф. дисс. …. кандидата педагогических наук. 2003.

[15]Рзаева Х.Н. Проблема авторского текста в исполнительской практике современных азербайджанских пианистов. Автореф. дисс. …. кандидата искусствоведения. Баку, 2007.

[16] Hüseynova K.H. Musiqimizin Fərhadı. Bakı, Adıloğlu, 2008.

[17] Алиева Ф.С. Фортепианные концерты азербайджанских композиторов (1970-2000). (фактурно-стилевые и ладовые особенности). Автореф. дисс. …. кандидата искусствоведения. Баку, 2009.

[18] Магеррамова А.А. Принцип преемственности в Азербайджанском фортепианно-исполнительском искусстве. Автореф. дис. …доктора философии по искусствоведению. Баку, 2008.

S.M.Mehdiyevanın[19], M.Z.Tuayeva, M.N.Sadıqzadəni[20], E.M.Mustafayevanın,[21] K.R.Sadırxanovanın,[22] E.L.Abbasovanın,[23] A.X.Xəlilovanın[24] N.H.Rimazi,[25] Y.S.Sayutkinin,[26] E.R.Kəbirlinskayanın,[27] V.D.Məmmədovanın[28] və bir çox başqalarının.

E.M. Əliyevanın yaradıcılıq fəaliyyəti haqqında olan araşdırmaya dövrün bir neçə nəşrlərində yer verilmişdir. Burada E.Əliyevanın yaradıcılığının bir çox aspektləri işıqlandırılır. Onların arasında: 8 yanvar 1982-ci il "Баку" qəzetində L.Mehmandarovanın «И все её ученики» məqaləsi; 29 Yanvar 1982 – ci il «Бакинский рабочий» qəzetində «Молодость и зрелость» məqaləsi; 30 yanvar 1986-ci il "Баку" qəzetində Y.Yaramışevanın «Помнят учителя» məqaləsi; 1986-cı ildə «Azərbaycan qadını» jurnalının 6-ci buraxılışında A.Əsgərovun «İstedadlı pianoçu-pedaqoq» məqaləsi, 5 May 1987-ci il «Баку» qəzeti F.Quluzadənin «Звучит музыка минувших веков» məqaləsi; 4 dekabr 2009-cu il «Зеркало» qəzeti Afət İslamın «Если бы пришлось заново прожить свою жизнь, я бы ничего в ней не изменила» məqaləsi. Bir çox digər nəşrlərdə Elmira xanım Əliyevanın və onun həyat yoldaşı, Azərbaycanın xalq artisti, professor Sabir Əliyevlə birgə yaradıcılığına yer verilir. Ümumiyyətlə, E.Əliyevanın yaradıcılıq fəaliyyəti haqqında olan bütün nəşr olunan ədəbiyyat bu araşdırmanın aparılmasında əhəmiyyətli rol oynayır.

Lakin Elmira Əliyevanın çox şaxəli elmi-yaradıcılıq və pedaqoji fəaliyyəti tam və dolğun şəkildə bir elmi araşdırma kimi tədqiq olunmamışdır.

---

[19] Мехтиева С.М. Жанровые, стилевые особенности и фактура в фортепианных произведениях Фикрета Амирова. Автореф. дисс. …. кандидата искусствоведения. Баку, 2009.

[20] Садыхзаде М.Н. Исполнительская интерпретация фортепианной музыки Азербайджанских композиторов в аспекте современной техники письма. Автореф. дис. …доктора философии по искусствоведению. Баку, 2010, 25 с.

[21] Мустафаева Е.М. Формирование навыков певучего исполнения в процессе фортепианного обучения. Автореф. дис. …доктора философии по педагогике. Баку, 2010. 25с.

[22] Садырханова К.Р. Роль концертмейстерского мастерства в профессиональном становлении солистов. Автореф. дис. …доктора философии по искусствоведению. Баку, 2010, 25 с.

[23] Аббасова Э.Л. Исполнительские особенности фортепианных прелюдий Азербайджанских композиторов в контексте эволюции жанра. Автореф. дис. …доктора философии по искусствоведению. Баку, 2010, 26 с.

[24] Xəliilova A.X. Azərbaycan fortepiano ifaçılığında bədii və texniki komponentlərin təzahür xüsusiyyətləri. Bakı, 2011, 22 s.

[25] Римази Н.Г. Черты стиля и вопросы интерпретации фортепианной и органной музыки Васифа Адыгезалова. Автореф. дис. …доктора философии по искусствоведению. Баку, 2011, 26 с.

[26] Саюткин Ю.С. Деятельность представителей азербайджанской фортепианной школы за рубежом. Автореф. дис. …доктора философии по искусствоведению. Баку, 2011, 30 с.

[27] Кеберлинская Э.Р.Творчество Эльмиры Сафаровой и её роль в развитии фортепианного искусства Азербайджана. Автореф. дис. …доктора философии по искусствоведению. Баку, 2011, 24 с.

[28] Məmmədova V.C.Azərbaycan fortepiano sənətinin inkişafında Simuzər Quliyevanın rolu" sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasoyanın avtoreferatı. Bakı, 2013. 25 s.

**Mövzunun elmi yeniliyi:** ondan ibarətdir ki, burada E.M.Əliyevanın musiqi-ifaçılıq fəaliyyətinin Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təkmilləşdirilməsində rolu, musiqişünaslıq və ifaçılıq nəzəriyyəsində musiqi-nəzəri və praktiki biliklərin metodoloji əsasları ilk dəfə olaraq müəyyənləşdirilir:

- onun yaradıcılıq uğurlarının müasir pianoçuların professional hazırlığında rolu geniş təqdim olunur və elmi əsaslandırılır;
- ifaçılıq, pedaqoji və elmi-metodik fəaliyyətinin öyrənilməsi nəticəsində şəxsi və peşəkar keyfiyyətlərinin xüsusi birliyi aşkarlanır;
- musiqi ifaçılığı və praktikasında, xüsusilə fortepiano sahəsində, tez-tez analitik və ya intuitiv yanaşma müşahidə olunur: birinci halda ifaçı və ya müəllim rasional biliyə, ikinci halda isə emosional yanaşmaya əsaslanır;
- musiqi ifaçılığı incəsənətində, solo və ansambl fəaliyyətində, fortepiano tədrisində E.Əliyevanın rolu;
- E.Əliyevanın musiqi sənətində publisistik fəaliyyəti;
- bütöv bir pianoçu nəslini yetişdirməklə, görkəmli yaradıcı musiqiçi-ifaçıların formalaşmasında E.Əliyevanın nəaliyyətləri.

Azərbaycan fortepiano nəzəriyyəsi və praktikası tarixində Azərbaycanın Əməkdar müəllimi və professoru E.M.Əliyevanın musiqi-yaradıcı fəaliyyəti dərin və hərtərəfli öyrənilməsi müstəqil elmi araşdırma kimi ilk dəfə təqdim olunur.

**Tədqiqatin məqsəd və vəzifələri**: E.Əliyevanın musiqi-ifaçılıq fəaliyyətini hərtərəfli öyrənmək, onun milli ifaçılıq mədəniyyətinin inkişafında və yeni azərbaycanlı pianoçu nəslinin formalaşmasında rolu tədqiqatın məqsədini təşkil edir.

Bununla əlaqədar olaraq tədqiqatın məqsədi kimi aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

a) E.M.Əliyevanın həyat və yaradıcılıq yolunu öyrənmək;
b) musiqi-ifaçılıq fəaliyyətinin hərtərəfli təhlili;
c) elmi- metodik fəaliyyətinin təhlili;
d) pedaqoji fəaliyyətinin öyrənilməsi;
e) E.M.Əliyevanın yaradıcılığının ümumiləşdirilməsi və onun müasir Azərbaycan musiqi mədəniyyətinin inkişafında və təkmilləşdirilməsində rolunun müəyyənləşdirilməsi.

**Tədqiqatın obyektini**: milli fortepiano sənətinin çiçəklənməsində və Azərbaycan fortepiano məktəbinin təbliğində E.Əliyevanın yeri və rolu təşkil edir. E.M.Əliyevanın hərtərəfli musiqi yaradıcılığı fəaliyyəti əsasında Azərbaycan fortepiano məktəbinin təkmilləşməsi tədqiqatın **predmetini** təşkil edir.

**Tədqiqatın metodu və metodoloji əsası**: E.M.Əliyevanın yaradıcılıq yolunun tədqiq olunması prosesi zamanı üzə çıxarılan praktik və nəzəri təcrübə musiqiçilərə, xüsusən pianoçulara, ansambl ifası, müxtəlif janr və cərəyanları əhatə edən fortepiano əsərlərinin interpretasiyası zamanı çoxsaylı problemləri həll etməyə imkan verir, müasir fortepiano incəsənətində olan texniki çətinliklərin aradan qaldırılması və bədiiliyə nail olmaq yollarını göstərir.

Bu baxımdan təqdim olunmuş dissertasiya işində tarixi-nəzəri metoddan istifadə olunur. Bu metodlardan çıxış edərək məzmun və forma, fərdi və ümumi, müqayisəli kateqoriyalara söykənərək araşdırma aparılmışdır.

Metodoloji bazaya gəldikdə isə Ü.Hacıbəyli, K.Səfərəliyeva, Z.A.Adıgözəlzadə, F.Bədəlbəyli, T.Seyidov, O.H.Abasquliyev, T.Kəngərlinskaya, A.H.Mailova, M.Sadıqzadə, N.Rimazi kimi alimlərin metodlarından istifadə olunmuşdur.

**Faktiki material**: E.M.Əliyevanın musiqi yaradıcılığı fəaliyyəti haqqında olan materiallar və onun şəxsi arxivi, ifaçılıq, pedaqoji və elmi-metodik təcrübəsi, tədqiqat prosesində əldə olunmuş materialların ümumiləşdirilməsi, pedaqoji və ifaçılıq fəaliyyətinin izlənilməsi, sorğu və müsahibələr, not nümunələri, E.M.Əliyeva və onun tələbələrinin konsert çıxışlarının siyahısı, sinfinin məzunlarının siyahısı, konsertlərin afişaları, ifa səsyazmalarının dinlənməsi, tələbələri ilə öyrənilən bir sıra Azərbaycan və xarici bəstəkarlarının fortepiano əsərlərinin təhlili və təfsir xüsusiyyətlərinin araşdırılması dissertasiyanın faktiki materialını təşkil edir.

**Tədqiqatın elmi-təcrübi əhəmiyyəti**: Dissertasiyanın materialı müasir pianoçuların tədris prosesi zamanı qiymətli metodoloji iş kimi istifadə oluna bilər, həmçinin musiqi ifaçılığı incəsənətində elmi iş axtarışında olanlara əsas material ola bilər. Dissertasiyanın nəticələri orta və ali musiqi məktəblərinin tələbə pianoçularına metodik yardımçı ola bilər. Dissertasiyanın əsas müddəaları fortepiano fakültəsinin tələbələri üçün metodika, pianoçuluğun tarixi və xüsusi pedaqoji hazırlıq fənləri üzrə yeni dərsliyin yaradılmasında əsas ola bilər.

Bu işin praktik əhəmiyyəti ondan ibarətdir ki, dissertasiyanın materialları ali və orta musiqi məktəblərində "Xüsusi fortepiano", "Ümumi fortepiano", "Fortepiano incəsənəti tarixi", "Fortepiano tədrisinin metodikası" üzrə kurslarda istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası**: Dissertasiyanın elmi faktları, qaydaları, analitik məlumatları müəllifin konsert ifaçılığı və pedaqoji fəaliyyət prosesində aprobasiya olunmuşdurlar. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında, elmi-praktiki, elmi-ifaçılıq konfrans və seminarlarında, həmçinin dissertasiyanın mövzusu ilə bağlı olan dərc olunmuş elmi məqalələrdə aparılmışdır.

**Dissertasiyanın quruluşu**: girişdən, üç fəsildən, altı yarımfəsildən, nəticədən, istifadə olunmuş ədəbiyyatdan və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**I fəsil. "E Əliyevanın yaradıcılıq şəxsiyyətinin formalaşması və inkişafı"** adlanır və iki bölmədən ibarətdir. **1.1. "Azərbaycan peşəkar musiqi mədəniyyətinin tarixi inkişafında E.M.Əliyevanın həyat və yaradıcılıq yolu" -** Azərbaycanda musiqi təhsili və tərbiyəsi sisteminin qoyulmasında dahi Üzeyir Hacıbəylinin rolunu

qeyd etməmək mümkün deyil. O vurğulayırdı: “Xüsusi musiqi təlimi üzrə iş peşəkar musiqiçiləri, musiqi müəllim və müəllimələri, opera vokalistlərini və bəstəkarları hazırlamaq məqsədini güdürdü. Bu məqsədin reallaşması üçün konservatoriyanın əsası qoyulur”.

Öz tərəfdaşları ilə birgə Azərbaycanın musiqisinin milli və qərbi Avropa, o cümlədən, rus musiqisi mədəniyyətinin ənənələri ilə qarşılıqlı təsir və zənginləşdirilmə ideyasını irəli sürən Ü.Hacıbəyli bu barədə “Музыкально – просветительские задачи в Азербайджане” məqaləsində ətraflı məlumat verib: “...Avropa musiqisini öyrənərək, biz, ilk öncə, əsrlər boyu inkişaf edən, kainata bir sıra dahi yaradıcı bağışlayan, insanlığı daim təkamül etməyə vadar edən qüvvə olan, beynəlxalq məna daşıyan və hər bir mədəni millətə tanış olan əsərlərdən ibarət olan incəsənəti öyrənirik...”[29]

Beləliklə, 30-cu illərin əvvəlində Azərbaycanda peşəkar musiqi təhsilinin üç mərhələdə təşkili və aktiv musiqi maarifçiliyi üçün bütün şərait yaradılmışdır. Məhz bu tarixi müddət Elmira Mirzə Ağa qızı Əliyevanın uşaqlığı və gənclik illərinə təsadüf edirdi. Milli musiqi mədəniyyətinin intensiv inkişaf etdiyi dövrdə musiqiyə dərin sevgi ilə fərqlənən, bu sevgini həyatı boyu aparıb tələbələrinə çatdıran bu şəxs, Ü.Hacıbəylinin əsasını qoyduğu ənənələrin davamçılarının parlaq bir nümunəsidir.

O, 1929-cu il iyunun 3-də Bakı şəhərində, Ağayev Mirzə Ağa Kərbəlayi Ağabala oğlu və Sultanova Suğra Məşədi Əliabbas qızı ailəsində anadan olub.[30] Musiqiyə sevgi Elmira xanımda erkən yaşlarında yaranmışdır, buna səbəb ailələrində milli musiqi çox səslənilirdi, ona böyük qiymət verilirdi və uşaqlar musiqi incəsənətinə böyük maraq göstərirdilər. Elmira xanımın uşaqlığı musiqi mədəniyyətinin ən parlaq dövrünə, musiqi təhsilinin sistemləşdirilməsi, konservatoriyada fakültələrin yaranması, şəxsi musiqi pedaqoji fəaliyyətin yaranması, Respublikanın müxtəlif təhsil ocaqlarında başlayan pedaqoq-musiqiçilərin sayının artması müddətinə düşür.

30-cu illərin ikinci yarısında bəstəkarlıq sənəti intensiv inkişaf edirdi və Üz. Hacıbəylinin, Z.Hacıbəyovun və M. Maqomayevin isimləri ilə bir sıraya A.Bədəlbəylinin, S.Rüstəmovanın, Niyazinin adları da daxil oldu. Elmira Əliyevanın musiqi inkişafına Qərbi Avropa və Rus mədəniyyətindən savayı, gənc Azərbaycan bəstəkarlarının, o cümlədən, Q.Qarayevin, C.Hacıyevin, T.Quliyevanın, F.Əmirovun əsərləri də təsir etmişdirlər. Bu bəstəkarların bədii fəaliyyəti 30-cu illərin axırında başlamışdı.

Həmin dövrdə Azərbaycanda musiqi mədəniyyətinin formalaşması milli ənənələrə əsaslanmadan, onları qoruyub inkişaf etdirmədən mümkün deyildi. Beləliklə, həm Qərbi Avropa, həm Rus, həm də milli mədəniyyətin vəhdəti Elmira xanımın musiqi təsəvvürünü formalaşdırır.

---

[29] Гаджибеков Уз. О музыкальном искусстве Азербайджана. /Сост. К.А.Касимов. Баку: Азернешр, 1966, 152 с.

[30] Elmira Əliyevanın öz soyadını Ağayeva idi.

Elmira Əliyevanın istedadını gözdən qoymayan müəllimi Mariya Pavlovna Yablonko onu musiqi texnikumunda üç il təhsilindən sonra istedadlı uşaqlar üçün nəzərdə tutulmuş onillik məktəbə keçirir. Bu məktəb 1933-cü ildə Konservatoriyanın nəzdində, sonradan, 1937-1938-ci illərdə pianoçu-pedaqoq K.K.Səfərəliyevanın rəhbərlik etdiyi Orta xüsusi musiqi məktəbinin tərkibinə daxil olundu. Belə bir məktəbin yaranması Azərbaycanda bacarıqlı musiqiçilərinin hazırlanması probleminin həllinə yönəlmişdir. "Bu musiqi ocağının əsasının qoyulmasına və böyüməsinə öz pedaqoji borcuna daim sadiq qalan Kövkəb xanım bütün gücünü, savadını və bacarıqlarını həsr etmişdir".[31] Beləliklə, 1942-ci ildə Elmira xanım onillik məktəbin 4-cü sinfinə daxil olub və onuncu sinfə qədər həmin məkanda təhsil alıb. O, Azərbaycan Dövlət Konservatoriyasının görkəmli sənətkarı, G.G.Şaroyevin tələbəsi olan Lidiya Nikolayevna Yeqorovanın sinfində oxuyurdu.

Doqquzuncu sinifdə oxuyarkən, E.Əliyeva Leo Qinzburgun rəhbərlik etdiyi simfonik orkestr ilə Azərbaycan dövlət Filarmoniyasının səhnəsində çıxış edirdi. L.N.Yeqorovanın rəhbərliyi altında gənc pianoçu müxtəlif janrlara aid olan əsərlər ifa edir və geniş repertuar qazanmışdır.

Beləliklə, Şaroyev məktəbinin ənənələri E.Əliyevanın peşəkarlığına böyük təsir göstərmişdir. Yeqorovanın sinfində o, geniş fortepiano repertuarı qazanıb, not mətnində qeyd olunan müəllifin işarələrinə diqqət yetirməyi, üzdən oxumaq və transponizə etməyi, texniki çətinliklərin öhdəsindən gəlməyi, musiqi frazasının "nəfəsini" duymağı öyrənib, bir sözlə, fundamental fortepiano təlimi məktəbini keçib.

1947-ci ildə məktəbi bitirdikdən sonra Elmira Əliyeva qəbul imtahansız Azərbaycan Dövlət Konservatoriyasına daxil olunmuşdur. Bu dövrdə burada təlim – tərbiyə prosesi aktiv inkişaf edirdi, fortepiano fakültəsinin tədris planı genişlənir, fortepiano incəsənətinin tarixi, pedaqoji təcrübə və fortepianoda ifa təliminin metodikası kimi fənlər iş prosesinə daxil olunur. Elmira xanımın tələbəlik illəri fortepiano fakültəsinin parlaq dövrünə təsadüf edir.

Konservatoriyanın rektoru 1939-cu ildən etibarən ömrünün axırına kimi dahi Üzeyir Hacıbəyli olmuşdur. Rektorun yaratdığı yeni bəstəkarlıq məktəbi öz zəfərini 1944-cü ildə Tiflis şəhərində Zaqavqaziya respublikaları musiqisinin dekadasında nümayiş etdirmişdi.

Üz.Hacıbəylinin məqsədi Konservatoriyada peşəkar pedaqoji kadrların hazırlanması probleminin həllini tapmaq idi. Rektorun tapşırığı ilə Azərbaycan Dövlət Konservatoriyasına müxtəlif musiqi fənləri üzrə ən yaxşı pedaqoqlar dəvət olunmuşdur. Onların intensiv bədii fəaliyyəti musiqi təlimi sisteminin formalaşmasına və gənc nəslin musiqi tərbiyəsinə böyük təsir göstərmişdir. Məhz G.G.Şaroyev və M.R.Brenner kimi istedadlı pianoçular xüsusi fortepiano kafedrasında fəaliyyət göstərmək üçün dəvət olunmuşlar, ilk nəsil milli pianoçuları tərbiyə etmişlər. Pedaqoji prosesi verdikləri töhfə, tələbəni ifaçılıq incəsənəti ilə həvəsləndirmək bacarığı, onların yüksək peşəkarlığından xəbər verir. İstedadlı pianoçu-pedaqoqların ilk

[31] Абасова Э.А. Узеир Гаджибеков. Путь жизни и творчества. Баку: Элм, 1985, с. 169

nəticələri peşəkar ifaçılar: K.K.Səfərəliyeva, R.İ.Atakışıyev, S.A.Quliyeva, N.İ.Usubova və bir çox başqaları idi. Onların adları ilə Azərbaycan fortepiano ifaçılığı və musiqi incəsənətinin qızıl dövrü, Azərbaycanın fortepiano məktəbinin dünyada tanınması və qəbul olunması bağlıdır. Konservatoriyada E.Əliyeva Azərbaycan fortepiano məktəbinin təsisçisi, xalq artisti M.R.Brennerin sinfində təhsil alırdı. Konservatoriyada çalışdığı illər Brennerin pedaqoji fəaliyyətinin parlaq səhifələrindən idi. Brennerin fortepiano məktəbinin nümayəndələri N.İ.Usubova, R.İ.Atakışıyev, R.A.Quliyev, A.B.Mirzoyev, U.A.Xəlilov, Z.A.Adıgözəlzadə, E.Y.Səfərova, F.Ş.Bədəlbəyli, O.Q.Abasquliyev, T,M.Seyidov, S.M.İbrahimova, S.Ş.Məhərrəmzadə-Şirinova, A.S.Əsgərov, V.S.Rəsulova, D.M.Muradova, A.A.Zülfüqarova, E.M.Əliyeva, T.Q.Qasımova, L.M.Məmmədəliyeva və bir çox başqaları kimi Azərbaycan pianoçularının fəxri adına layiqdilər.

Elmira Əliyeva öz müəllimindən yüksək peşəkarlıq, müəllifin mətninə xüsusi diqqət, gözəl səsçıxarma bacarığı, zərif pedalizasiya, intellektual və emosional başlanğıcların harmonik nisbətini mənimsəyib. Bütün bu bacarıqları Elmira xanım öz pedaqoji fəaliyyətində istifadə edir və Brennerin fortepiano məktəbinin ənənələrini davam edir.

Mayor Rafailoviç tələbəsi Elmira xanımın istedadını yüksək qiymətləndirirdi. Asanlıqla və qısa bir zamanda əlyazma müəllif mətninin üzdən oxunması, transponizə etmə və maarifçilik bacarıqlarını nəzərə alaraq yeni əsərlərini ifa etmək xahişi ilə müraciət edən gənc bəstəkarları Brenner Elmira Əliyevanın yanına göndərirdi.

G.G.Şaroyevin pedaqoji prinsipləri ilə bağlı olan məktəbli illəri və M.R.Brennerin fortepiano metodikasının təsiri altında keçən tələbəlik illər E.M.Əliyevanın hərtərəfli inkişafını stimullaşdırırdı. Bu qarşılıqlı təsir Elmira Əliyevanın musiqi individuallığı ilə uyğunlaşıb gələcək pianoçunun formalaşmasında mühüm iz buraxıb. Elmira xanımın bədii fəaliyyətinin tədqiqi bildirir ki özünəməxsus metodoloji yanaşmasında, ifaçılıq və pedaqoji biliklərinin formalaşmasında keçdiyi məktəblərinin fortepiano ənənələri uğurlu qarşılıqlı təsir göstərmişlər. Məhz bu səbəbdən hər iki məktəbin nümayəndələrinin pedaqoji metodlarının xüsusiyyətlərini araşdırmaq məqsədəuyğundur. E.M.Əliyevanın yaradıcılıq yolunun təhlili göstərir ki, hər iki nəhəngin metodikası pedaqoji və ifaçılıq fəaliyyətinin mühüm xüsusiyyətlərinə çevrilmişdir.

Konservatoriyada oxuduğu müddətdə Elmira Əliyeva böyük uğurla solo və ansambl tərkibində çıxış edərək özünü istedadlı pianoçu və bədii şəxsiyyət kimi tanıtmışdır. Konsertlərində ifa olunan program olduqca geniş və müxtəlif idi. İ.Haydn, V.Motsart, L.Bethoven, F.List, R.Şuman, F.Şopen, P.Çaykovski, S.Raxmaninov, S.Prokofyev, Q.Qarayev, C.Hacıyev, F.Əmirov kimi bəstəkarların əsərlərini əhatə edirdi.

Məhz bu dövrdə vilonçelist və gələcək həyat yoldaşı Sabir Əliyev ilə yaradıcılıq əlaqəsi nəticəsində pianoçunun konsertmeyster ustalığı üzə çıxır. Repertuar, konsert proqramları üzərində birgə iş, çıxışlar və qastrol səyahətləri həqiqi

və səmimi bədii yaradıcılıq bu iki insanın talelərini həmişəlik ailə münasibətləri ilə qovuşdurur.

Əliyeva E. Azərbaycan Dövlət Filarmoniyasının nəzdində Dövlət Triosunun solisti kimi (1950-53-cü illər) skripkaçı T.Bakıxanov və violonçelist S.Əliyev ilə çalışırdı.

S.Əliyevin daimi konsertmeysteri olaraq, onunla birlikdə ansambl tərkibində Barokko dövrünün musiqisindən tutmuş müasir bəstəkarların musiqisinə qədər geniş repertuar ifa edirdi. Birgə fəaliyyətləri müddətində Qərbi Avropa, Rus və Azərbaycan violonçel ədəbiyyatının demək olar ki bütün nümunələri ifa olunmuşdur.

E.Əliyeva Bül-Bül, Ş.Məmmədova, S.Aslanova, F.Əhmədova, L.İmanova kimi ifaçılar ilə ansamblda respublika radio və televiziya yayımlarında çıxış edirdi.

Azərbaycan Bəstəkarlar İttifaqının bütün Plenum və Toplantılarının, Azərbaycan incəsənəti və ədəbiyyatı Dekadalarının ən aktiv iştirakçısı idi. Məhsuldar ifaçılıq fəaliyyətinə görə Elmira Əliyeva Azərbaycan ali Şurasının Fəxri Fərmanı ilə mükafatlandırılmışdır.

60-illik pedaqoji fəaliyyəti boyu E.M.Əliyeva yüzdən çox məzun hazılayıb və onlar bu gün yalnız Azərbaycanda deyil, Rusiya, ABŞ, İzrail, Türkiyə kimi əcnəbi ölkələrin də musiqi ocaqlarında çalışırlar.

1978-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası E.M.Əliyevaya dosent, 1995-ci ildə - professor adı verilmişdir. 2008-ci ildə musiqi mədəniyyəti sahəsində zəhmətinə görə Elmira Mirzə Ağa qızı Əliyeva Azərbaycan Respublikasının Əməkdar Müəllimi adına layiq görülmüşdür.

Hal-hazırda, o, “Xüsusi fortepiano” kafedrasının aparıcı pedaqoqlarından biridir. 2012-ci ildə Elmira xanım məhsuldar və hərtərəfli bədii fəaliyyətinin altmış illiyini qeyd etmişdir.

Elmira Əliyeva çoxsaylı mühazirələr və rəylər ilə Bakının müxtəlif musiqi məktəblərində, musiqi kolleclərində çıxış edirdi və bu milli musiqi kadrların hazırlanmasında böyük rol oynamışdır.

E.M.Əliyeva bir sıra qiymətli elmi-metodik iş və tövsiyə buraxmışdır. Müəllifin elmi-metodik fəaliyəti müasir peşəkar musiqiçilərin ifaçılıq və pedaqoji prosesində zəruri və qiymətlidir.

E.M.Əliyeva səmərəli yaradıcılıq və ifaçılıq fəaliyyətinə görə Azərbaycan SSRİ-nin Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilib. Əliyeva Elmira Mirzə Ağa qızı Əməkdar incəsənət xadimi adına layiq görülür. Təəssüf ki, Elmira xanıma Azərbaycanın Əməkdar müəllimi fəxri adı yalnız 2008-ci ildə verilib.

Beləliklə, E.M.Əliyeva fortepiano ustalarının, istedadlı müəllimlərinin sahəsində gözəl fortepiano incəsənəti məktəbini keçərək, yaradıcılığında böyük uğurlar əldə edib və nəticədə milli musiqi mədəniyyətinin, xüsusilə də Azərbaycanın fortepiano-ifaçılıq incəsənətinin daha da tərəqqisinə yol açır. Və hazırda o, bütün musiqi-ifaçılıq fəaliyyəti ilə pianizm ənənələrinin varisliyini həyata keçirir. Onun yetirmələri müxtəlif şəxsiyyətlər olmalarına baxmayaraq öz müəllimlərinin işini davam etdirirlər, öz ifaçılıq və pedaqoji fəaliyyətlərində müxtəlif dərəcədə öz

istedadlı rəhbərinin estetik dəyərlərini,yaradıcılıq prinsiplərini və bədii meyarlarını əks etdirirlər. Onların ifasını dinlədikcə, sinifdə iş prosesini müşahidə etdikcə, təlim metodikasının xüsusiyyətlərini təhlil etdikcə Azərbaycan pianizm məktəbinin ənənələrini daha dəqiq dərk etmək olur.

**1.2 E.M. Əliyevanın elmi-metodik və publisistlik fəaliyyəti.** Əliyeva Elmira bütün məsuliyyətlə pianoçu-müəllimin fəaliyyətində empirik təcrübənin dəyərini dərk edirdi. Eyni zamanda, o, ardıcıllıqla pedaqoji prosesi daha optimal edən pedaqoji prinsiplərinin sistemini araşdırırdı. Bu prinsiplərə əsaslanmış məşğələlər tələbələrin öz bacarıqlarının müstəqil inkişafı və mükəmməlləşdirilməsi prosesinin qurulmasına səbəb olublar. Bu gün də tələbələrə müəyyən bir fortepiano əsəri üzərində müstəqil işdə və öz biliklərini, bacarıqlarını aktiv şəkildə təkmilləşdirməkdə kömək göstərən elmi-metodik əsərlər məhz bu məqsədlə yaradılmışdır. Öz rəyində Arif Məlikov Elmira Əliyevanın yüksək elmi-tədqiqat və redaktorluq professionallığını qeyd edir: "Elmira Əliyeva ifaçılıq və müəllimlikdən başqa elmi-tədqiqat işi ilə də məşğuldur. Azərbaycan bəstəkarlarının yeni əsərlərinin redaktə edilməsi, tədris prosesində mütəmadi istifadə olunan metodiki məsləhətlərin çap olunması və s. bu qəbilədəndir".

E.M.Əliyevanın publisistlik və elmi-metodik fəaliyyəti onun yaradıcılıq bioqrafiyasında mühüm yer tutur.

Bütün əmək fəaliyyəti ərzində Elmira Əliyeva onu pedaqoji və ifaçılıq işi ilə aktiv birləşdirirdi. Qeyd etmək lazımdır ki, onun publisistlik və xüsusilə elmi – metodik fəaliyyəti pedaqoji və ifaçılıq təcrübəsinə ilə bivasitə bağlıdır. Bunu nəşr olunmuş işlərin tematikası və məzmunu təsdiq edir. Məsələn, E.M.Əliyeavıv bütün nəşr olunmuş metodik işləmələri: "E.Məmmədovun variasiyaları" (Bakı -1983); "A. Abbasovun fortepiano və violonçel üçün sonatina" (Bakı – 1983); "Fərhəng Hüseynovun sonatinası" (Bakı – 1985); "Üz.Hacıbəyovun "Aşıq" triosu" (Bakı – 1985), "M.Mirzəyevin fortepiano, violonçel və skripka üçün triosu" (Bakı – 1986); "T.Bakıxanov " Variasiyalar f-moll" "Uşaq pyesləri" "Bes prelyudiya" (Bakı -1987) onların ifaçılıq aprobasiyası üzərində yaradılmışdılar, yəni, bu əsərlərin ifaçılıq təcrübəsinə əsaslanaraq, müxtəlif bilikləri, bacarıqları və vərdişləri analiz edərək, pianoçu öz praktiki təcrübəsini nəzəriyyə ilə ümumiləşdirib, metodik baxımdan vacib və məzmunlu illər yaradırdı. Metodik işlərin yüksək praktiki əhəmiyyəti məhz bununla izah olunur.

E.Əliyevanın elmi-metodik fəaliyyətinin digər əhəmiyyətli sahəsi onun tərəfindən ilk dəfə ifa olunmuş fortepiano əsərlərinin redaktə edilməsi və fortepiano işlənmələrin yaradılmasıdır. Bu kimi işlərin arasında R. Hacıyevin "Fortepiano üçün sonatina"; T.Bakıxanovun "Fleyta və fortepiano üçün intermetso"; T.Bakıxanovun "Skripka və fortepiano üçün rəqs"; T. Bakıxanovun "Skripka və fortepiano üçün ekspromt"; T.Bakıxanovun "Violonçel və fortepiano üçün sonata №1"; T.Bakıxanovun "Violonçel və fortepiano üçün sonata №2"; T.Bakıxanovun "Violonçel və fortepiano üçün konsert"; S.Ələsgərovun " Violonçel və fortepiano üçün simfonik orkestr ilə ikili konsert"; S.Ələsgərovun "Dahi bəstəkar

Üz.Hacibəylinin xatirəsinə fortepiano, skripka və violonçel üçün trio"; T.Bakıxanovun Nizami Gəncəvinin "Xəmsə" əsərinin motivləri əsasında təkxanəli "Xeyr və Şər" baleti (1994). Verilmiş siyahı Elmira xanımın elmi-tədqiqat maraqlarının necə geniş və müxtəlif olduğunu əks edir. Burada kamera-instrumental və fortepiano repertuarının müxtəlif janrları göstərilib.

Xüsusi diqqət E.Əliyevanın publisistlik fəaliyyətinə də yiyələnməlidir. Azərbaycanın dahi bəstəkarı Üz.Hacibəyli haqqında fikirlərini Elmira xanım məqalələrində bildirib: "Dahi bəstəkar" "Qobustan" №4, 1985-ci il və "Üzeyir Hacıbəyli və klassik Rus musiqisi" "Bakı" qəzeti 18 oktyabr 1985-ci il. Bu məqalələrdə Üzeyir bəyin hərtərəfli şəxsiyyəti yalnız istedadlı bəstəkar, pedaqoq, ictimai xadim kimi yox, eyni zamanda yüksək mənəvi mədəniyyətə malik olan bir insan kimi ifşa edilir.

.Əliyevanın çoxsaylı metodik işlərinin indi də öz metodik aktuallığını itirməyiblər və yeni ifaçı nəsillərə analiz olunan musiqi əsərlərinin interpretasiya prosesində kömək edirlər. Metodik işləmələr son dərəcədə aydın, məntiqi ardıcıl, ifadəli üslubda yazılmışlar.

Öz metodik işində Elmira xanım gənc pianoçulara melodiyaya sıx bağlı olan və ifadəliyi ilə fərqlənən harmonik dilə, tonallığın inkişafına, modulyasiya hərəkətinə, akkord keçidlərində aşkar olan funksional əlaqələrə xüsusi diqqət yetirməyi məsləhət görür.

Bütövlüklə, Elmira Əliyevanın elmi-metodik və publisistlik fəaliyyəti, onun bədii-estetik prinsiplərini əks etdirir və ifaçılıq və pedaqoji təcrübəsinə əsaslanır. İşin təhlili Elmira xanımın elmi-tədqiqatçı təfəkkürünə və dərin musiqi-nəzəri biliklərə malik olduğunu büruzə verir. O, bu bilikləri pedaqoji və ifaçılıq təcrübəsi ilə əlaqələndirib, öz elmi-metodik irsində təcəssüm edir. Pedaqoq-pianoçunun peşəkar ustalığının daimi inkişafının və təkmilləşdirməsinin vacibliyi Elmira xanımın metodik işində öz təsdiqini tapır.

E.M.Əliyevanın Azərbaycan bəstəkarlarının yeni əsərlərinin redaktəsi məqsədiylə gördüyü böyük elmi-tədqiqat işləri də qeyd etmək lazımdır.

Azərbaycan musiqisinin fəal təbliğatçısı, Azərbaycan bəstəkarlarının kamera əsərlərinin ilk ifaçısı olmaqla, Əliyeva E.M. Moskvada keçirilən Azərbaycan incəsənətinin dekadalarında, Azərbaycan bəstəkarlar İttifaqının qurultay və plenumlarında daima iştirak edib. Onun ifasında Azərbaycan bəstəkarlarının bir çox əsərləri yazılıb və istər Respublika, istərsə də Ümumittifaq fonduna daxil olub.

**II Fəsil. "Elmira Əliyevanın musiqi ifaçılıq fəaliyyəti"** adlanır. **2.1 "Elmira Əliyevanın solo ifaçılıq fəaliyyəti" -** Elmira Əliyevanın ifaçılıq fəaliyyəti Azərbaycan fortepiano incəsənətində xüsusi yer tutur. İfaçılıq fəaliyyətinin təhlili milli musiqi mədəniyyətinin tarixində parlaq inkişaf erası ilə bağlıdır. Elmira Əliyeva tez-tez solo və simfonik orkestrlər ilə çıxış edirdi. Onun konsert proqramlarında dünya fortepiano klassikasının əsərləri ifa olunub və bunlar pianoçunun zəngin bədii individuallığını əks edir. Öz ifasında fortepiano fakturasının tembr və dinamika

zənginliyini ustalıqla göstərir, əsərə həm emosional dolğunluq, həm də ciddi və məntiqi quruluş, ritm və temp xasdır.

Elmira Əliyevanın solo ifaçılıq repertuarı zəngindir və müxtəlif janrlara aid olan əsərlərdən ibarətdir: barokko dövrünün musiqisindən XX əsrin müasir musiqisinə qədər: Bax, Vyana klassikası, qərbi Avropa romantikası, fransız impressionizmi, XIX-XX əsrlərin rus musiqisi, müasir Azərbaycan, rus və xarici fortepiano incəsənəti.

E.M.Əliyevanın ifasında olan lent yazıları ifaçının şəxsiyyətinin bütövlüyündən, zənginliyindən, daxili aləminin genişliyindən məlumat verir. E.M.Əliyevanın ifaçılığına bədii üslubunun individuallığı, gözəl zövq, müəllif mətninə diqqətli və qayğılı yanaşma, əsərin bütün kiçik nüanslarının icrası məxsusdur. Elmira xanımın öz xatirələrinə, dahi musiqiçilərinin çoxsaylı rəylərinə, qorunmuş yazılara əsaslanaraq ifaçılıq fəaliyyətinin öyrənilməsi, ümumiləşdirilməsi və xüsusiyyətlərinin üzə çıxarılması aparılıb.

İfaçılıq repertuarında mühüm yer klassik və romantik musiqiyə ayrılırdı.

Dahi bəstəkar İ.S.Baxın əsərlərinin traktovkası Elmira xanımın ifaçılığının parlaq nümunəsidir. Bax əsərlərinin lakonik, ifadəli mətnində Elmira xanım polifoniyanın melodik xasiyyətini, canlı ritmik xüsusiyyətini vurğulayır.

İ.S.Baxın musiqisini E.Əliyeva sadə, parlaq, akademik quruluğa heç bir bənzərlik olmadan ifa edirdi.

İ.Haydn, V.A.Motsart, L.V.Betxoven kimi Vyana klassiklərinin əsərləri ifaçılıq repertuarının böyük hissəsini təşkil edirdi. Bu əsərlərin interpretasiyasında məntiqi parlaqlıq, daxili alicənablıq hiss olunur, aşağıdakı prinsiplərdən istifadə olunur: musiqi əsərinin dəqiq tempini ifadə etmək və bütün ifa prosesi boyu müəyyən ritmik nəbzinin saxlanılması; müəllifin qeyd etdiyi bütün ştrixlərə əməl edilməsi; dinamik kontrastlar; minimal pedalizasiya. Romantizm bəstəkarlarının, xüsusilə, R.Şumanın, F.Listin, F.Şopenin, F.Şubertin seçilmiş əsərləri Elmira Əliyevanın repertuarında əsas yer tutur. R.Şumanın əsərlərini interpretasiya edərək, Elmira xanım ilk növbədə portret obrazlarının dramaturji ifadəsini həyata keçirən musiqiçi-psixoloq kimi iştirak edir. Pianoçu əsərdəki əhval-ruhiyyənin nüanslarını və ruhi halının dinamikasını nəcib, incə şəkildə dinləyiciyə ötürür.

Polşa bəstəkarı F.Şopenin yaradıcılığına E.Əliyeva xüsusi diqqətlə yanaşır. O, dayanmadan yeniliklər axtarışında idi, balladaların, sonataların, skertsoların və fortepiano miniatürlərin ifaları təkrarolunmaz idilər. Şopenin fortepiano əsərlərinin E. Əliyeva tərəfindən interpretasiyası əsrarəngiz zövq, dərinlik, təravətliyi ilə fərqlənirdi. Xüsusilə, E.Əliyevanın hər şeyi axırına kimi dinləmək və pyesin məzmunundakı sirləri tapıb nümayiş etmək bacarığını qeyd etmək lazımdır.

Şopenin əsərlərinin ifasında böyük təcrübə qazanması E.Əliyevanın əsas metodik prinsiplərini formalaşdırır və tələbələr ilə Şopenin əsərlərinin təhlili zamanı bu prinsiplərdən istifadə edir.

Beləliklə, Elmira xanımın interpretasiyasında Şopenin konsertinin təhlili çərçivəsində bir sıra ifaçılıq məsələlərinə toxunduq: dramaturji və bədii obrazın

canlandırılması, frazirovka ustalığı, “rubato”nun istifadəsi, kulminasiya sənəti, səsin miqdarı, pedaldan istifadə.

Klassik rus və müasir fortepiano musiqisindən də E.Əliyevanın repertuarında geniş istifadə olunur.

S.Raxmaninovun musiqisinə Elmira xanım həmişə hörmətlə yanaşırdı. Raxmaninov obrazlarının gərginliyini vurğulamaq məqsədilə, Elmira xanım əsərin əvvəlində bu gərginliyin qabağını alır, sanki enerji və emosiya toplayır və dinləyicini əsərin ən yüksək nöqtəsinə, kulminasiyasına yönəldir. Dinamik gedişin yüksəlməsi üsulu konsertlər, etüd-lövhələr və prelyüdiyalar üzərində iş zamanı istifadə olunurdu.

Misal kimi Prokofyevin əsərini də göstərmək olar. Pianoçu Prokofyevin musiqi dünyasını xüsusi özünəməxsus üslubda ifa edir, hazır interpretasiya nümunələrinə gözüyumulu riayət etməkdən çəkinir.

Yeni ifaçılıq üsullarından istifadə etməklə Elmira xanım Prokofyev obrazlarının zənginliyini göstərir. Onun interpretasiyaları ifaçılıq dramaturgiyasının məntiqliyi və dəqiqliyi ilə, ifanın melodik olması ilə fərqlənir. Bəstəkarın musiqi dilinin qeyri-adi olmasına baxmayaraq, pianoçu klassik ifaçılıq üslubuna məxsusluğunu qoruyub saxlayır.

Elmira xanımın ifasında Prokofyev əsərlərinin traktovkası müasirdir, çünki pianoçu öz ifasında müasir həyatın ritminə yaxınlaşmaq məqsədini izləyir. Musiqili ifada lakoniklik, lazımsız emosional qeyri – dəqiqlik qeyd olunmur. E.Əliyevanın ifaçılıq palitrasında bir sıra məqamlar sadə səslənir, lakin bu sadəlik xüsusi məna daşıyır, pianoçunun fikirlərini harmonik üsullar ilə, modulyasiya texnikası ilə, bədii xarakter daşıyan akkord komplekslərinin istifadəsi ilə, diatonikanın və melodik xəttin incə səslənməsi vasitəsilə canlandırır.

Fransa bəstəkarları S.Frankın, K.Sen-Sansın və başqalarının əsərləri E.Əliyevanın repertuarında müəyyən yer tutur. Böyük temperamentlə və eyni zamanda təmkinlə Sen-Sansın ikinci konsertini, S.Frankın Prelyudiya, Xoral Fuqasını və “Simfonik variasiyalar”ını memarlıq incəliyi və dəqiqlikliyi ilə ifa edir.

Elmira Əliyevanın repertuarında xüsusi diqqət impressionist bəstəkarların əsərlərinə verilirdi. Konsert proqramlarına K.Debüssinin və M.Ravelin əsərləri sistematik şəkildə daxil olunurdu. E.M.Əliyeva impressionizm üslubunun spesifikasını mükəmməl anlayırdı və bu əsərləri zərif, incə, yüksək pedalizasiya ustalığı ilə ifa edirdi.

E.Əliyevanın ifaçılıq fəaliyyətində xüsusi səhifə Azərbaycan bəstəkarlarının əsərlərinə həsr olunmuşdur. C.Hacıyevin, F.Əmirovun, Q.Qarayevin, A.Məlikovun, M.Mirzəyevin əsərləri milli koloritin qorunması ilə ifa olunur. Xüsusilə Q.Qarayevin prelyüdiyaları, o cümlədən, “Sarskoselo heykəli” əsəri müxtəlif konsert zallarında dərin ilham hissi ilə səslənirdi.

E.Əliyevanın F.Əmirovun “Fortepiano üçün variasiyalar”ının ifası da dinləyicilərin hafizəsində həkk olunub. Variasiyaların interpretasiyasında vacib məqamlardan biri milli koloriti vurğulayıb, ustalıqla auditoriyaya çatdırmaqdır.

A.Məlikovun əsərlərindən Elmira xanım “Sevgi əfsanəsi” baletindən fraqmentlərin ilk dəfə televiziyada səsyazma zamanı ifa etdiyini xatırlayır. E.Əliyeva A.Abbasovun “Qaraca qız” baletinin klavirinin ilk ifaçısı olmuşdur. Bəstəkarın xahişi ilə Elmira xanım klavirin birinci hissəsini, ikinci hissəsini isə pianoçu Roza Şifrin hazırlamışdılar.

Azərbaycan bəstəkarlarının əsərlərini ifa edərkən pianoçu ən çox yayılmış texniki və musiqi problemlərini asanlıqla həll edir: Ritmik nəbzə riayyət olunur; bəstəkarın qeyd etdiyi bütün temp dəyişiklikləri nəzərə alınır; Bütün sinkop və aksentlərin dəqiq ifası musiqiyə kolorit verir; Applikaturanın düzgün uyğunlaşması (applikaturanı mütləq cəld tempdə də çalmağa cəhd etmək lazımdır); Musiqinin xarakterindən asılı olan bütün ştrixləri icra etmək; Tersiya, oktava, akkord texnikasına mükəmməl malik olmaq; Sıçrayışların öhdəsindən gəlmək; Repetisiya texnikasından istifadə.

Dahi dirijor Niyazinin E.Əliyeva haqqında bildirdiyi rəyini misal göstərək: “Elmira Əliyeva, şübhəsiz, Azərbaycanın ifaçılıq məktəbinin istedadlı nümayəndələri arasındadır. Mən, şəxsən, özüm bu istedadlı pianoçunun peşəkar kimi formalaşmasının şəhidi olmuşam, çünki onun ustalığının inkişafının mərhələləri mənim rəhbərliyim altında olan Üz.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrin çıxışları ilə sıx əlaqəli idi. Elmira Əliyevanı bədii tələbkarlıq, yüksək mədəniyyət, zəhmətkeşlik və maraqlarının genişliyi fərqləndirir. Hərtərəfli qabiliyyətə malik olan bu insan həm solist kimi, həm də ansambl ifaçısı kimi, Azərbaycan bəstəkarlarının əvəzolunmaz ifaçısı və özünəməxsus interpretatoru kimi çıxış edir”.

**2.2. “Elmira Əliyevanın konsertmeyster ifaçılığı fəaliyyəti”** adlanır. Müasir Azərbaycan musiqi ifaçılığında konsertmeyster ustalığının rolu böyükdür. O, professional pianizmin ən geniş yayılmış şöbələrindən olub, praktiki cəhətdən fortepiano müşayiəti altında müxtəlif ifaçılıq növlərinin özülü ilə bağlıdır.

Elmira xanımın hərtərəfli və uzunmüddətli konsertmeyster fəaliyyəti Azərbaycan musiqi mədəniyyəti tarixində parlaq bir səhifə olaraq musiqi ifaçılığı sahəsində əhəmiyyətli nailiyyətlərə imza atmışdır. Elmira xanımın konsertmeyster fəaliyyətinin tədqiqinə başlamazdan əvvəl qeyd etmək lazımdır ki musiqi ifaçılığının bu lazımlı sahəsində keçmiş və müasir musiqi mədəniyyətinin ən məşhur musiqiçiləri uğur qazanmışlar. Onlardan: A.Rubinşteyn, M.Musorqskiy, S.Raxmaninov, F.Blumenfeld kimi dahi Rus pianoçu-solist və akkompaniatorların adlarını çəkmək olar. Bu cəhətdən özlərini S.Taneev, V.Safonov, K.İqumnov, Q.Neyqauz, A.Qoldenveyzer, L.Oborin, M.Yudina, Rixter parlaq büruzə vermişlər. Xarici musiqiçilər arasında məşhur konsertmeysterlərdən A.Korto, A.Şnabel, D.Enesku, B.Valter, Dj.Mur və bir çox digərlərini misal göstərmək olar.

İstedadlı Azərbaycan pianoçu konsertmeysterləri arasında V.M.Kozlovun, R.İ.Atakişiyevin, Ç.Sadıxovun, F.Ş.Bədəlbəylnini, M.Adıgözəlzadənin adlarını çəkmək olar.

Hal-hazırda konsertmeyster fəaliyyəti pianoçunun professional hazırlığının ayrılmaz bir hissəsi olaraq onun ifaçılıq bacarıqlarının diapazonunu genişləndirir.

Belə ki, konsertmeyster bacarıqlarının tərbiyə olunması prosesi ifaçılıq sənətinin bütün mövcud növləri haqqında xüsusi bilik və böyük təcrübə tələb edir.

Elmira Əliyevanın konsertmeyster ifaçılıq fəaliyyəti 1948-ci ildən başlayır. Onun birlikdə ifa etdiyi tanınmış musiqiçi ifaçıların adları arasında xalq artistlərindən Bülbül, Lütfiyar İmanov, Firəngiz Əhmədova, Sabir Əliyev, Agababa Bünyadzadə, Sona Aslanova və Rauf Atakişiyevin, əməkdar artistlərdən Rasim Abdullayev, Yuriy Abdullayev, Eldar İsgəndərov, Anatoliy Mamedov, Etibar Dadaşlı, Adilə Babayeva, Səlimə Qayıbovanı qeyd etmək olar. Onun konsertmeyster repertuarı rəngarəng və irimiqyaslıdır. Burada vokal və kamera-instrumental musiqi janrı geniş yer almışdır.

Misal olaraq kamera-instrumental əsərlərdən nümunə göstərmək olar: L.Bokkerini violonçel və fortepiano üçün 6 sonata, Lokatelli violonçel və fortepiano üçün sonata, Valentini violonçel və fortepiano üçün sonata, L.V.Bethoven violonçel və fortepiano üçün sonatalar № 1-5, skripka və fortepiano üçün sonatalar № 2,3,5,8,9, F.Şubert "sonata arpegione" fortepiano və violonçel üçün. Kvintet: R.Şuman kvintet, J.Brams fortepiano və violonçel üçün sonata № 1-2, S.Prokofyev fortepiano və violonçel üçün sonata, D.Şestokoviç fortepiano və violonçel üçün sonata, N.Myasmovskiy fortepiano və violonçel üçün sonata №1-2, A.Zeynallı fortepiano və violonçel üçün sonata, S.Ələsgərovun fortepiano və violonçel üçün orkestrlə ikili konserti, A.Abbasov violonçel və fortepiano üçün sonatina, T.Bakıxanov violonçel və fortepiano üçün sonatina, T.Bakixanov violonçel və fortepiano üçün sonata № 1-4. O, M.Maqomaev adına Azərbaycan Milli Filarmoniyasında Azərbaycan incəsənət və ədəbiyyatının dekadalarında, musiqi ifaçılarının beynəlxalq konkurslarında Moskva konservatoriyasının balaca və böyük zallarında müşayiət etmişdir.

Elmira Əliyeva altı Zaqafqaziya musiqi ifaçıları müsabiqəsində aktiv iştirak etmişdir. Üçüncü Ümumittifaq violonçelistlər konkursunda öz ifasında əsərin məğzini obrazlı şəkildə professional təsvirini vermişdir. O, konsertmeyster kimi bütün müsabiqələrdə fəxri diplomlarla və təşəkkürnamələrlə təltif olunmuşdur. Elmira Əliyevanın konsertmeyster fəaliyyəti haqqında dünya şöhrətli musiqiçi M.L.Rostropoviç deyirdi: Pianoçu Elmira Əliyevanı əla pedaqoq və kamera musiqisi ifaçısı kimi tanıyıram. Onun Ümumittifaq müsabiqələrdə ansamblda violonçelistlərlə ifası məndə ən xoş təəssüratlar yaradıb. E.M.Əliyevanın

Elmira xanım Sabir Əliyevlə birlikdə bir çox Azərbaycan bəstəkarlarının əsərlərinin ilk ifaçılarıdırlar. Onlar Azərbaycan musiqisinin bütün janrlarını Azərbaycan və keçmiş Sovet İttifaqı bəstəkarları birliyinin plenumlarında və qurultaylarında, Azərbaycan mədəniyyətinin dekadalarında, Ümumittifaq festivallarında tərənnüm etmişdirlər. Bir çox hallarda əlyazmalar üzərindən ifa, ifa zamanı not mətninin transportirovkası və redaktə olunması öyrənmə prosesini çətinləşdirirdi. Onlar S.Ələsgərovun fortepiano və violonçel üçün yazılmış ikili konsertinin 2 dekabr 1951-ci ildə dirijor Leo Ginzburqun rəhbərliyi və Milli Simfonik Orkestrin müşayiəti ilə Moskva konservatoriyasının böyük zalında ilk ifaçıları olmuşlar. Daha sonra bu əsəri 4 yanvar 1952-ci ildə M.Maqomayev adına Milli Dövlət Filarmoniyasında Niyazinin başçılığı altında ifa etmişlər.

Konservatoriyanı bitirdikdən sonra o, Q.Qarayevin səyi ilə tərkibinə Rəşad Səidzadə (alt), Azad Əliyev (skripka) və Murad Tağıyev (skripka) daxil olan kvartet yaratdı.

Kvartetin əvəzolunmaz konsertmeysteri olan Elmira Əliyeva yaradıcılıq prosesini təmkinlə müşahidə edir, ifaçıların qeydlərini qəbul edir, iştirakçılara ortaq məxrəcə gəlməyə və əsl ansambl yaranmasına kömək edirdi.

Böyük populyarlığı Azərbaycan dövlət filarmoniyasının nəzdində Dövlət triosu, tərkibində Azad Əliyev (skripka), Sabir Əliyev (violonçel) və Elmira Əliyeva (fortepiano) olmaqla qazanıb. Onların 1950-1953 illər ərzində uğurlu konsert fəaliyyəti Azərbaycan musiqi ifaçılıq incəsənətinin tarixində parlaq dövr olmuşdur. Konsertlərdə ifa olunan proqram qərbi Avropa, rus klassikasının və, eləcə də, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət idi.

Onların ifasında violonçel üçün bir çox ən müxtəlif dövrlərdən olan musiqi əsərləri səslənmişdir: Baxın, Bokkerininin, Dvorjakın, Smetananın, Çaykovskinin, Raxmaninovun, Myaskovskinin, Prokofyevin, Şostakoviçin, Kabalevskinin əsərləri, həmçinin, Azərbaycan bəstəkarlarının violonçel üçün yaradılmış , demək olar ki, bütün əsərləri.

S.Raxmaninov Sonatasının dünya ifaçılığında populyarlığı hamıya məlumdur və bu əsər dünyanın bir çox dahi musiqiçilərinin repertuarına daxil olur və ansambl ustalığında bir növ "sınaq daşı" rolunu oynayır. Sonatanı böyük uğurla A.B.Qoldenveyzer, Q.Q.Neyqauz, K.N.İqumnov, M.Rostropoviç və bir çox başqaları kimi dahi violençelistlər və pianoçular ifa ediblər.

Yüz ildən artıqdır ki S.Raxmaninovun və violençelist Brandukovun yaratdıqları "ifaçılıq obrazı"nın üzərində sonatanın interpretasiyasında müəyyən ənənələr formalaşırdı.

Beləliklə, S.Raxmaninovun violonçel və fortepiano üçün Sonatasının təhlilini ümumiləşdirərək, qeyd edək ki, Sabir və Elmira Əliyevlər əsl peşəkar interpretatorlar kimi müəllifin fikrini özünəməxsus şəkildə canlandırmağa, musiqi əsərlərində yeni cəhətləri aşkar etməyə çalışmışdılar. Beləliklə, onlar, təbii ki, öz gözəl təbiətləri və yaradıcılıq üslubuna daha yaxın olan məqamları daha parlaq və dolğun büruzə verirlər.

Sabir və Elmira Əliyevlər öz birgə fəaliyyətləri ilə Azərbaycan musiqi-ifaçılıq mədəniyyəti tarixinə şərəfli səhifələr yazmışdılar.

İfaçılıq fəaliyyətləri ilə yanaşı, onları birgə pedaqoji fəaliyyət də birləşdirirdi. İstedadlı musiqiçilər, parlaq bədii şəxsiyyətlər olan Sabir Əliyev və Elmira Əliyevanın adları Azərbaycan musiqi ifaçılığı incəsənəti və pedaqogikası tarixi ilə həmişəlik bağlıdır.

Elmira xanım öz təcrübəsində bir çox vokalistləri müşayiət edərkən, bilavasitə vokal intonasiyasının aparılması üsulunu kəşf etmişdir.

E.Əliyevanın aktiv konsertmeyster fəaliyyəti onu fortepiano ifaçılığı ustalığının formalaşmasına çox böyük müsbət təsir göstərmişdir. Pianoçu ansambl ifaçılığında böyük təcrübə toplayaraq, öz fərdi ifaçılıq ustalığını yaradırdı. Böyük

kamera-instrumental və vokal ədəbiyyatından ibarət olan repertuar həqiqətən yüksək peşəkar fortepiano ifaçılığının inkişafı üçün potensial imkanlar yaradır və məhz bu fortepiano incəsənətinin təkmilləşməsində mühüm və əsas rol oynayır.

**III fəsil. «Elmira Əliyevanin pedaqoji fəaliyyəti»** adlanır və iki bölmədən ibarətdir. **3.1 E.M.Əliyevanın "Xüsusi fortepiano" sinfində pedaqoji fəaliyyəti** pedaqoji fəaliyyətini Elmira xanım A.Zeynallı adına Bakı musiqi kollecində fortepiano ixtisası üzrə başlamışdır (1952-1955 illər). Pedaqoji fəaliyyəti ilə bərabər konservatoriyanın simli alətlər kafedrasında konsertmeyster kimi çalışırdı və pedaqogika ilə ifaçılığın qarşılıqlı təsiri ümumi peşəkarlıq ustalığının təkmilləşməsi üçün təkan idi.

1956-ci ildən Elmira xanım Əliyeva Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Xüsusi fortepiano" kafedrasında əvvəlcə baş müəllim kimi (1956), sonra dosent vəzifəsini (1987) və 1995-ci ildən bu günə qədər professor vəzifəsini yerinə yetirir.

Onun pedaqoji üslubuna, fortepiano ənənələrinə qayğıkeş münasibət xasdır, ifaçılığı əsaslı texniki hazırlıqsız təsəvvür etmir, texniki ustalığının formalaşmasını metodik etüdlərdən başlandığını bildirir. E.M.Əliyevanın "Xüsusi fortepiano" sinfində tələbələr ilə musiqi üzərində apardığı pedaqoji prosesin əsas prinsiplərinə nəzər salaq.[32]

Tələbələrin repertuarında xüsusi yer İ.S.Baxın polifoniyalarına ayrılırdı. Elmira xanım əmindir ki, İ.S.Baxın musiqisi ifaçını ruhən tərbiyələndirir. Dahi polifonist bir sıra nəsil ifaçıların müəllimi olub, tələbələrini nəzəri izahları ilə deyil öz örnəyi üzərində öyrədirdi.

E.M.Əliyevanın sinfində Baxın f-moll fortepiano konsertinin interpretasiyasına həsr olunmuş bir sıra dərsləri müzakirə edək. Əsas diqqəti pedaqoq bütöv dramaturji konsepsiyanın əldə olunmasına yönəldir, pianoçunun hisslərini düzgün xətt üzrə qurulmasını və mükəmməl formanın yaranmasını tələb edir. Dəyişməz ritmik dəqiqlik ifanı ifadəliyini pozmamalıdır.

İfada Elmira xanım dramaturji formanın yaradılmasını tələb edir, melodik əlaqələrinin, həmahəng məntiqliyin, frazirovka və musiqi dilinin digər tərkib hissələrinin qorunmasını vurğulayır.

Elmira Əliyeva konsertin bütün hissələrində dinamikanın böyüməsini tələb edir, tələbəni dalğavarı, yüksəlmə və enmələrdən ibarət olan ifadan uzaqlaşdırır, kulminasiyaya yönəlməsini istəyir. Nəticədə ifa daha bütöv və inandırıcı qavranır və tələbə müəllif formasına dəqiqliklə riayət etmiş olur.

Elmira xanım tələbənin diqqətini əsərdəki musiqinin dövrünə də yönəldir. İ.S.Baxın bütün əsərlərində nəzərə çarpan polifonistin yaratdığı dövrün zövqü və

---

[32] Verilmiş elmi material müəllifin 2008 – 2011 – ci illər ərzində Elmira xanımın sinfində fortepiano əsəri üzərində iş zamanı şəxsi iştirakı üzərində yaradılıb.

əhvalı konsertin hisslərində də qeyd olunur və bu səbəbdən dahi Baxın musiqisini ciddi, həyati, insanlıqcasına və akademik quruluğun izi olmadan ifa etmək lazımdır.

R.Şumanın "Simfonik etüdlar" silsiləsinin təhlilində E.M.Əliyeva öz ifaçılıq təcrübəsinə əsaslanır. Birinci dərsdə pedaqoq "Simfonik etüdlar"ın tarixindən bəhs edir, R.Şumanın bu əsəri ingilis bəstəkarı Bennetə həsr olunduğunu və eyni zamanda müxtəlif olan və bütöv bir dinamikada təntənəli finala səy göstərən variasiyalar silsiləsi kimi yarandığını qeyd edir.

Elmira xanım etüdları ifa edir və iki janrın sintezindən əmələ gələn və bəstəkarın sevimli akkord fakturasının üzərində qurulmuş əsərin əsas mənasına nail olmağa çalışır.

Elmira Əliyevanın sinfinin repertuarında F.Şopenin Birinci Balladası g-moll mühüm yer tuturdu və pedaqoq özü də bu əsəri dəfələrlə konsert səhnəsində ifa edirdi.

Pedaqoji prosesi başlamaqdan öncə, Elmira Əliyeva əsərin dramaturji məzmununun 1830-1831-ci illərdə baş tutmuş polyak üsyanından sonra yaranmış əsərlərin məzmununa yaxınlığından bəhs edir. Birinci Balladanın Mitskeviçin "Konrad Vallenrod" əsərinin təəssüratı altında yaranması haqda rəvayət mövcuddur.

Birinci Balladanın yaranmasında Şopen işıqlıq və qaranlıq obrazlarının mübarizəsindən istifadə edir, allegro və rondo elementlərini, möhtəşəm kodanı əlavə edir, vərdiş olunmuş quruluş xüsusiyyətlərinin yerlərini dəyişir və beləliklə, özünəməxsus bir forma nail olur.

E.Əliyeva digər nümunəyə əsaslanaraq qeyd edir ki: ifa etməkdən əvvəl mütləq Mitskeviçin "Konrad Vallenrod" poemasını oxumaq lazımdır. Ballada bir növ əfsanədir və onun məzmunu orta əsrlər obrazlarının məkanıdır.

Əsər üzərində işin sonuncu mərhələsində Elmira Əliyeva müəyyən ifaçılıq konsepsiyanın, yəni dramaturji bütövlüyün nail olmasını görür. Bu proses musiqi əsərinin məzmununun aşkarlanmasından, onun silsiləvi inkişafının, əsas və köməkçi kulminasiyalarının dərk olunmasından ibarətdir.

Son dərəcədə dərin musiqiçi olduğu üçün, Elmira xanım öz pedaqoji fəaliyyətində pianoçunun hərtərəfli bədii və mədəni inkişafına xüsusi əhəmiyyət ayırırdı. Öz tələbələrinə çoxlu kitab oxumağı, müxtəlif janrlarda musiqiyə qulaq asmağı, ətraf mühiti və təbiəti öyrənməyi tövsiyə edir. O, qeyd edir ki, ifanın uğurlu olması musiqili obrazın dərk olunmasından asılıdır, hansı ki pianoçunun bədii individuallığı və şəxsi təcrübəsi ilə uyğunlaşır.

Elmira Əliyevanın sinfində böyüyən hər bir pianoçu pedaqoqun metodik prinsiplərini qəbul edir və bədii cəhətdən yeniləndirir. Fortepiano ənənələrini davam edərək, tələbələri bu metodlardan istifadə edirlər, lakin onları təqlid etmirlər, əksinə, öz şəxsi əmanətini daxil etməklə metodları daha da inkişaf etdirməyə və təkmilləşdirməyə çalışırlar.

**3.2. "Elmira Əliyevanın "Konsertmeyter ustalığı" sinfində pedaqoji fəaliyyəti" -** 50-60-ci illər arasında Azərbaycan Dövlət Konservatoriyasında akkompanement sinfi aktiv şəkildə inkişaf edir və təkmilləşirdi. 18 Dekabr 1926-ci

ilin əsasnaməsində, yəni Azərbaycan musiqi mədəniyyətini inkişaf etdirməyə qadir olan yüksək peşəkar musiqiçilərin hazırlanması qeyd olunur. Həmin əsasnamədə konsert və opera ifaçılarının, dirijorların hazırlanmasından başqa ansambl tərkibində ifa edən konsert ifaçılarının da hazırlanmasının vacibliyi vurğulanır (1,53). Azərbaycan Dövlət Konservatoriyasının 1 sentyabr 1939-cu ilin əsasnaməsində isə fortepiano və konsertmeyster sinifləri təlim-tərbiyyə prosesinin xüsusi fənnləri sayılır. Akkompanement sinfi 1937-ci ildə açılmışdır. Konsertmeyster V.M.Kozlov akkompanement sinfinin ilk rəhbəri olub və 23 il ərzində fəaliyyət göstərib.

1969-cu ildən etibarən E.Əliyevanın sinfini altmışdan çox məzun bitirib. Onlardan çoxu ən önəmli ansambl ifaçıları və pianoçu pedaqoqlar kimi fəaliyyətlərini davam ediblər. Misal üçün, Azərbaycanın xalq artisti – Z.A.Adıgözəlzadəni, Azərbaycan xalq şairi – Vəkilov Vagif Səməd oğlunu, Azərbaycan əməkdar müəllimləri, professorlar E.D.Musayevanı, S.Ş.Məhərrəmzadə-Şirinovanı, Z.M.Şəfiyevanı, D.Mirzəquliyevanı və bir çox başqalarını göstərmək olar.

Musiqi əsərinin üzərindəki işə, repertuarın seçiminə, tələbəyə bildirilən tələblərə, onun individuallığına xüsusi, özünəməxsus yanaşma göstərirdi. Kafedranın konsert ifaçılıq, musiqi-maarifçilik, elmi-metodik və təlim-tərbiyyə fəaliyyətində bir pedaqoq kimi fəal iştirak edirdi.

Akkompanement sinfində onillik zəhməti ərzində, Elmira xanım tələbələri ilə iri vokal və kamera – instrumental repertuarı keçib. Elmira Əliyeva qeyd edir ki, solo və akkompanement fəaliyyətinin qarşılıqlı əlaqəsi ən çox vokal kamera musiqisində biruzə verilir, xüsusiylə, iri həcmli əsərlərdə - vokal silsilələrində.Bu cür əsərlərdə fortepiano partiyası vokalistin partiyasının daşıdığı funksiyaları daşıyır, vokal və fortepiano duetinin tərkib hissəsinə çevrilir. Nümunə kimi F.Şubertin "Qış yolu", R.Şumanın "Qadının həyat və yolu", "Şairin sevgisi", M.Musorqskinin "Ölümün rəqs və mahnıları", " Günəşsiz", Q.Malerin "Uşaq üçün", K.Sen-Sansın, K.Debüssinin və başqa bəstəkarların vokal silsilələrini göstərmək olar.

Bəstəkarların bir çoxu akkompanement partiyasını səs və fortepianonun dueti şəklində təsəvvür edirdilər, və bu solist və pianoçunun partiyalarının bərabər hüquqluğundan, mühümlüyündən, aralarındakı səs balansından söz açır. E.M.Əliyeva qeyd edir ki, bu əsərlərdə əsası qoyulmuş ansambl ifaçılığı prinsipləri solo ifa edən səsin və fortepianonun dialogun yaranmasından xəbər verir, səs və fortepiano biri birini tamamlayırlar.

Öz konsertmeyster müəllimi kimi fəaliyyətin nümunəsi olaraq tələbə ilə K.Sen-Sansın "Fars melodiyaları" op.26 vokal silsiləsi üzərində apardığı işi göstərir. E.M.Əlievanın repertuarında geniş yayılmış F.Şubertin C-dur op.159 "Fantaziya"sı 1827-ci ildə yazılıb, möhtəşəm çex virtuozuna, Yozef Slavika həsr olunduğundan bəhs edir. Bəstəkar tanınmış skripkaçının ifaçılıq üslubunu nəzərə alıb bu əsəri yaradırdı.

Yuxarda aparılan kamera-instrumental və vokal əsərlərinin təhlili timsalında E.M.Əliyevanın metodiki prinsiplərini ümumiləşdirək . Elmira xanım öz sinfində

ifaçılıq ansamblının yaranmasına mühüm vaxt sərf edir və bu ansambl tələbələrinin şəxsiyyətlərinin mürəkkəb dəyişkən psixoloji qarşılıqlı əlaqələri üzərində qurulur. Bu yalniz musiqini deyil, eyni zamanda ifaçıların sırf psixoloji impulslarını qavramağa imkan yaradır.

Elmira xanım vurğulayır ki, bir çox konsertmeysterlərin fikrinə görı partiyanı əzbərlənmələrinin səbəbi ondan ibarətdir ki, not mətni musiqiçilərin arasında psixoloji baryer yaradır. Ansambl ifaçılarının sözlərinə görə əzbər ifa solist ilə daha yaxın kontakta imkan yaradır, solisti emosional və bədii tərəfdən daha yaxşı hiss etməyə kömək edir.

Elmira xanımın konsertmeyster sinfində fəaliyyətinin metodikasını umumiləşdirərək qeyd edək ki, o, bütün bacarıqlarını, biliklərini və təcrübəsini pianoçuda bu sənətə sevgi, istək və maraq yaratmağa, vokal və instrumental akkompanementinin vərdişlərini birləşdirməyə yönəldir. Tələbələrini yüksək peşəkar konsertmeyster fəaliyyətinə və hər bir solist və instrumentalist ilə birgə işləməyə hazırlayır. Tələbələrinə tez-tez “ansambl” sözünü (fransız dilindən “birlik” deməkdir) təkrarlayır və hər ikisinin qarşısında əsas məqsədi – ifa zamanı birgə obrazı yaratmaq üçün bütün hərəkətlərin uyğun olmasını-qoyur.

Elmira Əliyevanın pedaqoji fəaliyyətinin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, o, tələbələrinə hər şeyi subyektiv (bədii) və obyektiv (texniki) dərrakənin sintezi və qarşılıqlı təsiri mövqeyindən izah edirdi. Elmira xanımın müvəffəqiyyətlərinin və pedaqoji ustalığının sirri bu iki prosesin dərin və ayrılmaz əlaqəsindən ibarətdir. Yüksək dərəcəli intellektinin və zəngin emosionallığının interpretasiyası E.M.Əliyevanın fortepiano pedaqogikasındakı və şəxsi ifaçılıq fəaliyyətindəki uğurlarının səbəbinə çevrilmişdir.

Elmira xanım deyir ki, musiqi əsərinin öyrənilməsində iki üsul var: vertikal və horizontal. Horizontal ifa odur ki, ifaçı ancaq melodiyanı qabarıq çalır, onu hər şeydən üstün tutur. Vertikal ifa isə o deməkdir ki, sən hər notu eyni cür görürsən, lakin bununla yanaşı melodiya barədə unutmursan. Yəni, musiqi melodiya ilə hərəkət etməlidir və bununla bərabər bütün notlar aydın eşidilməlidir. Həmçinin hərəkət heç bir zaman dayanmamalıdır. Hər zaman qabağı görmək lazımdır.

Elmira xanımın pedaqoji fəaliyyətinin əsas cizgisi ondadır ki, o ən əvvəl tələbələrinə sərbəst düşünməyi öyrətməyə çalışır. O bildirir ki, saatlarla məşğul olduğun əsər, texniki imkanlar – bütün hər şey yalnız əsərin bədii konsepsiyasına, dramaturgiyasına yönəlməlidir. Yəni, əgər ifaçı ən əvvəldən nə haqqında ifa etdiyini anlamasa, onun əsərin öyrənilməsinə sərf etdiyi zaman çox mənasız olar. Bu çox vacib məsələdir. Və bütün texniki çatışmazlıqlar, çətinliklər də ifaçının düşündüyü, qurduğu dramaturgiyaya qulluq etməlidir və bundan sonra onların üzərində işə başlamaq olar. O tələb edir ki, ilk dərslərdən tələbə əsərin musiqi məzmununu anlamağa çalışsın. Prinsipial olaraq əsəri ilk dərslərdən əzbər gətirməyi o, tələb etmir.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur, fəsillərdə ifadə olunan qənaətlər mumiləşdirilir və tədqiqata yekun vurulur.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

**Халилова Саида Гаджибаба кызы**

**Роль пианистки Эльмиры Алиевой в развитии музыкального исполнительского искусства Азербайджана**

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, шести разделов, заключения, списка использованной литературы и приложений. Во введении обосновывается актуальность, степень научной разработанности, научная новизна, цель и задачи, методологические основы, объект и предмет, научно-практическая значимость, апробация исследования.

**Первая глава** - «**Формирование и развитие творческой личности Э.М.Алиевой»** состоит из 2-х разделов, где дается историческая предпосылка становления и развития профессионального музыкального образования в Азербайджане в области фортепианного исполнительства второго поколения пианистов в лице профессора Э.М.Алиевой. **1.1. «Жизненный и творческий путь Э.М.Алиевой в контексте исторического развития профессиональной музыкальной культуры Азербайджана». 1.2.Научно-методическая и публицистическая деятельность Э.М.Алиевой»**.

**Вторая глава – «Всесторонняя фортепианная исполнительская деятельность Э.М.Алиевой»** состоит из 2-х разделов, в которых дается научная оценка творческого осмысления авторского прочтения произведений классиков западноевропейской, русской и азербайджанской музыки, а также методы её исполнительской интерпретации и трактовки. **2.1. «Сольная исполнительская деятельность Э.М.Алиевой», 2.2. «Концертмейстерская исполнительская деятельность Э.М.Алиевой».**

**Третья глава – «Педагогическая деятельность Э.М.Алиевой»** состоит из 2-х разделов, где раскрывается многогранность ее педагогической деятельности и подчеркивается вклад в деле воспитания и формирования профессиональных навыков пианиста-солиста и концертмейстера. **3.1. «Педагогическая деятельность Э.М.Алиевой в классе «Специального фортепиано», 3.2. «Педагогическая деятельность Э.М.Алиевой в классе «Концертмейстерского мастерства»**.

В **заключении** подводится обобщающий итог всей диссертационной работы.

Saida Hacibaba qizi Khalilova

# The Pianist- Elmira Aliyeva Role, in Azerbaijan Performing Musical Art Development

## The Summary

The thesis consists from the introduction, three chapters, six divisions, the final, the list of explored literature and enclosures. In the introduction is justified the topicality, scientific elaboration degree , scientific novelty, the target and tasks , methodology basics , object and subject, scientific practical significance, research approbation .

**The first chapter – "E. M. Aliyeva's creative personality formation and development ."** consists from 2 divisions , where is given professional musical education in Azerbaijan formation and development historical background in second generation pianists pianoforte performance sphere, represented by E. M. Aliyeva. **1.1. "E. M. Aliyeva's Life and Creative Way in of Azerbaijanian Professional Musical Culture Historical Development Context". 1.2."E. M. Aliyeva 's Scientific - Methodology and Journalistic Activity".**

**The second chapter – "E.M.Aliyeva's Comprehensive Pianoforte Performing Activity"** consists from 2 divisions where Western European, Russian and Azerbaijanian music classics' author's reading creative comprehension scientific mark is given. And also its performance interpretation and treatment methods. **2.1. "E.M.Aliyeva's Soloist Performance Activity". 2.2. "E. M. Aliyeva's Concertmaster Performance Activity".**

**The third chapter – "E. M. Aliyeva 's Teaching Activity . "** consists from 2 divisions, where her teaching activity multivariate is disclosed , and is underlined her contribution into pianist soloist and concertmaster professional skills brought up and formation matters. **3.1. "E. M .Aliyeva in "Special pianoforte." Class Special - Teaching Activity. 3.2. "E. M. Aliyeva's teaching activity in "Concertmaster Mastership Class".**

The whole thesis generalizing conclusion is given in final.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ им.У.ГАДЖИБЕЙЛИ**

***На правах рукописи***

**Халилова Саида Гаджибаба кызы**

# Роль пианистки Эльмиры Алиевой в развитии музыкального исполнительского искусства Азербайджана

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по искусствоведению**

**БАКУ - 2014**